Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

# Etnik-dini müxtəlifliyə dövlət yanaşmalarında iki nümunə - Azərbaycan tolerantlığı və erməni dözümsüzlüyü...



**Yanvarın 25-də Avropa Şurası Parlament Assambleyasın Monitorinq Komitəsinin (AŞPA) "AŞPA Monitorinq prosedurunun 2020-ci il üzrə tərəqqi hesabatı" adlı qətnamə qəbul edilib.**

Xarici İşlər Nazirliyindən bildirilib ki, hər il ənənəvi hazırlanan hesabatla əlaqədar qətnamə layihəsində monitorinq prosedurunа və ya monitorinqdən sonrakı dialoqa cəlb edilmiş ölkələrdə, o cümlədən Azərbaycan və Ermənistanda baş vermiş əsas hadisələr qiymətləndirilir və müvafiq tövsiyələr verilir. Qətnamədə Ermənistan və Azərbaycan arasında baş vermiş döyüşlər kontekstində müvafiq bəndlər yer alıb. Belə ki, sənədin 5-ci bəndində komitənin "27 sentyabr 2020-ci il tarixində Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ bölgəsində baş verən hərbi döyüş əməliyyatları ilə bağlı hadisələri izlədiyi, bu mövzuda cari məsələlər üzrə debat irəli sürdüyü, hər iki tərəfdən deputatların iştirakı ilə fikir mübadiləsi təşkil etdiyi, Ermənistan və Azərbaycan üzrə həmməruzəçilərin münaqişənin sülh yolu ilə həllinə çağırışlar etdiyi" qeyd olunur.

**Tərəflər arasında məsuliyyətin eyniləşdirilməsi tam yanlışdır…**

Qətnamənin 11-ci bəndində isə aşağıdakı fikirlər yer alıb: "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar olaraq, Assambleya bütün tərəfləri siyasi dialoqa mane olan iltihablı ritorikadan çəkinməyə, Ermənistanı və Azərbaycanı üçtərəfli bəyanatın humanitar məsələlərlə bağlı müddəalarını ən qısa müddətdə həyata keçirməyə, bütün tərəfləri dərhal hərbi əsirlərin və cəsədlərin mübadiləsini həyata keçirməyə, mədəni irsə hörmət etməyə çağırır və Monitorinq Komitəsini parlament səviyyəsində sülh prosesi üçün əlverişli bir atmosferə töhfə vermək üçün yolları araşdırmağa dəvət edir. Assambleya bu münaqişə zamanı bütün tərəflərin humanitar və insan hüquqları qanunlarını pozduğuna dair məlumat və iddialar, bəzi dini yerlərin və abidələrin deqradasiyası, eləcə də xüsusi mülkiyyətin dağıdılması iddialarından ciddi narahatlığını ifadə edir, bu məlumatların tam araşdırılmasını, pozuntuların aradan qaldırılmasını və günahkarların mühakimə olunmasını gözləyir".

Diqqət çəkən vacib məqam budur ki, AŞPA tərəfləri bəzi dini yerlərin və abidələrin deqradasiyasının qarşısını almağa çağırır. Təbiidir ki, bu məsələdə tərəflər arasında məsuliyyətin eyniləşdirilməsi tam yanlışdır. Çünki dini və mədəni abidələrə münasibətdə Azərbaycanla Ermənistanın davranışları müqayisəyəgəlməz dərəcədə fərqlidir. İstərdik bu müqayisəni konkret faktları təqdim etməklə aparaq.

**Azərbaycan xalqının milli-mənəvi yaddaşına güclü zərbələr vurulub…**

Ermənistanın Azərbaycan xalqına qarşı apardığı təcavüzün qurbanları təkcə soydaşlarımız deyil, həm də yaşı minilliklərlə ölçülən tarixi-dini abidələrimiz və ziyarətgahlarımız olub. Dini abidələrimiz xalqımızın tarixi yaddaşıdır. İşğal altında qalan abidələrimiz, o cümlədən digər mədəniyyət nümunələrimiz dağıdılaraq təhqir olunub. Ermənilərin işğal olunmuş Azərbaycan torpaqlarında tarixi-dini abidələrimizə qarşı saxtakarlıq və cinayət əməlləri beynəlxalq səviyyədə təsbit olunmuş "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasının və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir. Qədim Azərbaycan torpaqlarında məhv edilən abidələrin 67-si məscidlər, 140-ı ziyarətgahlardır. Bunlar erməni işğalçıları tərəfindən dağıdılıb və Azərbaycan xalqının milli-mənəvi yaddaşına güclü zərbələr vurulub.

**Təəssüf ki, nə nüfuzlu təşkilatlar, nə də böyük dövlətlər səviyyəsində münasibət bildirilmir…**

Monoetnik Ermənistan dünya dəyərlərinə qarşı çıxaraq, işğal etdikləri yerlərdə azərbaycanlıların maddi-mənəvi abidələrini məhv edib. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Ermənilər daha bir əxlaqsızlıq edərək, Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla azərbaycanlılara qarşı öz nifrətlərini büruzə veriblər.

Ermənilərin bu siyasətinə qarşı, təəssüf ki, nə nüfuzlu təşkilatlar, nə də böyük dövlətlər səviyyəsində münasibət bildirilir. Bir çox hallarda özlərini görməzliyə vurur, bəzən isə üzərindən sükutla keçirlər.

**Xristianlıq dövrü abidələri isə erməniləşdirilib…**

İşğal olunmuş Azərbaycan torpaqlarında tarixi-dini abidələrimizə qarşı belə cinayət əməlləri, ölkəmizin mədəni irsinə qarşı təcavüz faktları, şübhəsiz ki, yolverilməzdir və sözün əsl mənasında vandalizmdir. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının XVIII Zirvə görüşündəki çıxışında bu barədə deyib: "Azərbaycanın işğal olunmuş ərazilərində bütün tarixi abidələr, məscidlər, məzarlıqlar Ermənistan tərəfindən dağıdılmış, muzeylər və maddi-mənəvi sərvətlərimiz talan edilmişdir. Ermənistan məqsədli surətdə işğal olunmuş ərazilərdə Azərbaycan izini itirməyə çalışaraq bütün toponimləri erməniləşdirir ".

Qeyd edək ki, əzəli torpaqlarımızdakı İslam mədəniyyəti abidələri tamamilə məhv edilmək üzrədir. Xristianlıq dövrünədək olan və xristianlıq dövrü abidələri isə erməniləşdirilib. Bu abidələrin üst yazıları dəyişdirilməklə ermənilərə məxsusluğu barədə müxtəlif dillərdə dezinformasiyalar yayılır və beynəlxalq ictimaiyyətə çatdırılır. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər məhv edilib. Dağlıq Qarabağ ərazisi, eləcə də işğal altında olan digər rayonlarımız tarixi, mədəni abidələrlə olduqca zəngin idi. Şuşa isə tarixi abidələr şəhəri idi. Şuşadakı abidələr yerlə-yeksan edilib.

**İndi onların adı var, özü yox…**

Füzuli rayonunun Qarğabazar kəndində XVII əsrə aid məscid, XVI-II əsrə aid türbə, Aşağı Ayıbasanlı kəndində İbrahim türbəsi (XVIII əsr), Aşağı Veysəlli kəndində XII əsrə aid qəbiristanlıq və Mir Əli türbəsi (XIII əsr) kimi tarixi abidələr bu yerlərin qədim tarixə malik olduğunu təsdiqləyirdi. İndi onların adı var, özü yox. Zəngilan rayonunda də dini abidələr və ziyarətgahlar qalmayıb. İmam Hüseyn məscidi, Malatkeşin, Qıraq Muşlan, Rəzdərə kəndlərindəki məscidlər, Məlikli kəndində Hacı Mir Məhəmməd, Genlik kəndində Seyid Həsən ağa ocaqları və s. tamamilə dağıdılıb.

Kəlbəcər rayonu ərazisində də dini abidələrdən əsər-əlamət qalmayıb. Onlardan XIX əsrə aid məscid, Otaqlı və Başlıbel kəndlərində XVIII-XIX əsrlərdə tikilmiş məscidlər, Seyid Əsədullah ziyarətgahı, Seyid Əhməd ağa ocağı və digər ziyarətgahlar bu qəbildəndir. Qubadlının Dondarlı və Dəmirçilər kəndlərindəki məscidlər, iki türbə, Gürcülü kəndindəki XVII əsrə aid türbə, Seytas kəndindəki İmamzadə ibadətgahının və Xocamsaxlı kəndindəki XVIII əsrə aid türbənin, demək olar ki, heç izi də qalmayıb.

**Kilsə, sinaqoqların bərpası və yenidən qurulması Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin tərkib hissəsidir...**

Bunlar dağıdılmış dini abidələrimizin və ibadətgahlarımızın yalnız bir qismidir. Faşist xisləti düşmən Azərbaycan xalqına məxsus çox qiymətli tarixi-dini abidələrin tamamilə məhv edilməsi istiqamətində işlərini indi də davam etdirməkdədir. Ancaq Ermənistandan fərqli olaraq, multikultural və çoxkonfessiyalı ölkə olan Azərbaycanda bütün xalqlar və dinlərin nümayəndələri əsrlərdir dinc yanaşı yaşayır, qurub-yaradırlar. Ölkəmizdə olan çoxsaylı xristian icması cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir və onların abidələri və ibadət yerləri, kilsələr Azərbaycan dövləti tərəfindən tam mühafizə edilir və mütəmadi olaraq bərpa edilir. Təsadüfi deyil ki, Roma Papası Fransisk 2016-cı ilin oktyabr ayında Azərbaycana səfəri zamanı Azərbaycanı dini tolerantlıq üzrə dünyada model ölkə kimi qiymətləndirib. Maddi-mədəni irsə dəyər verilməsi, tarixi-dini abidələrimizin, o cümlədən kilsə, sinaqoqların bərpası və yenidən qurulması Azərbaycan dövlətinin bu sahədə həyata keçirdiyi siyasətin tərkib hissəsidir. Son 20 ildə Rus Pravoslav Baş Kafedral Kilsəsi ("Jen Mironosits" pravoslav kafedral kilsəsi), "Xilaskar" Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsi dövlət tərəfindən təmir edilib, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib. Belə ki, Qəbələdəki Çotari alban-udi və Bakıdakı Pravoslav kilsələrinin təmiri, Bakıdakı Müqəddəs Məryəm kilsəsinin inşası Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində reallaşdırılıb. 2020-ci ildə layihə çərçivəsində Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib. Bakı şəhərinin mərkəzində Azərbaycan dövləti tərəfindən Erməni Kilsəsi bərpa edilib və insanların sərbəst istifadəsinə verilib.

**İşğaldan azad edilmiş ərazilərdəki müsəlman abidələri ilə yanaşı, xristian mirası da...**

Azərbaycan təkcə ölkə daxilində deyil, dünya miqyasında xristian irsinin qorunmasına töhfələr verib. Ölkəmizin dəstəyilə Vatikanda yerləşən Müqəddəs Sebastian katakombaları, Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış "Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş" çərçivəsində Roma şəhərində Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə Rusiyada xristianlığın qəbul edilməsinin 1025 illiyinə və Həştərxanın təməlinin qoyulmasının 455 illiyinə həsr edilən Müqəddəs Vladimir kilsəsinin qarşısındakı meydanda Knyaz Vladimirin abidəsinin ucaldılması bu faktların sırasındadır. Bununla yanaşı, Fransanın Orn departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım edilib.

Azərbaycan bəyan edib ki, işğaldan azad edilmiş ərazilərdəki müsəlman abidələri ilə yanaşı, xristian mirası da mənşəyindən asılı olmayaraq yüksək səviyyədə qorunacaq, bərpa ediləcək və istifadəyə veriləcək. Təqdim olunan faktlar Azərbaycanla Ermənistanın dini abidələrə münasibətindəki fərqi aydın şəkildə ortaya qoymuş olur.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**